İPƏK YOLU, No.1, 2024, səh.10-23
https://doi.org/10.30546/1810-911X.2024.1.10

# AZƏRBAYCAN RESPUBLİKASINDA ƏLİLLƏRİN SOSİAL MÜDAFİƏSİNİN YAXŞILAŞDIRILMASI İSTİQAMƏTLƏRİ

**Jalə Əliyeva**

Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutu, Bakı, Azərbaycan
Azərbaycan Universiteti, Bakı, Azərbaycan
e-mail: jale.aliyeva@au.edu.az

**Xülasə.** Məqalədə əlilliyi olan şəxslərin sosial müdafiəsi sahəsində mövcud vəziyyət qiymətləndirilmiş, beynəlxalq qurumların əlilliyi olan şəxslərin sosial müdafiəsinin yaxşılaşdırılması istiqamətində verdikləri tövsiyələr nəzərdən keçirilmiş və ölkəmizdə bu kateqoriyadan olan insanların sosial rifahının gücləndirilməsi istiqamətləri müəyyən edilmişdir.

**Açar sözlər:** Sosial müdafiə, inklüziv, sosial müavinət, əlilliyi olan şəxslər.

**DIRECTIONS FOR IMPROVING THE SOCIAL PROTECTION OF THE DISABLED IN THE REPUBLIC OF AZERBAIJAN**

**Zhala Aliyeva**
*Ministry of Science and Education Institute of Economics, Baku, Azerbaijan*
*Azerbaijan University, Baku, Azerbaijan*

**Abstract.** In the article, the current situation in the field of social protection of persons with disabilities is evaluated, the recommendations given by international organizations in the direction of improving the social protection of persons with disabilities are reviewed and directions for strengthening the social welfare of people from this category in our country are determined.
**Keywords:** Social protection, inclusiveness, social benefits, persons with disabilities

**НАПРАВЛЕНИЯ ПО УЛУЧШЕНИЮ СОЦИАЛЬНОЙ ЗАЩИТЫ ИНВАЛИДОВ В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ**

**Жала Алиева**
*Министерство Науки и Образования Институт Экономики, Баку, Азербайджан*
*Университет Азербайджан, Баку, Азербайджан*

**Резюме.** В статье дана оценка текущей ситуации в сфере социальной защиты лиц с ограниченными возможностями, рассмотрены рекомендации международных организаций в направлении улучшения социальной защиты лиц с ограниченными возможностями, а также определились направления укрепления социального благосостояния людей из этой категории в нашей стране.
**Ключевые слова:** Социальная защита, инклюзивность, социальные льготы, лица с ограниченными возможностями.

## 1. Giriş

Əlilliyi olan şəxslərin sosial müdafiəsi onların rifahının yaxşılaşdırılmasında və cəmiyyətə inteqrasiya olmalarında son dərəcə zəruridir. "*Sosial müdafiə əsas səhiyyə xidmətinin və gəlir təhlükəsizliyinin təmin edilməsi vasitəsilə yoxsulluğun azaldılmasında və qarşısının alınmasında, bərabərsizliyin aradan qaldırılmasında və hər kəs üçün ömür boyu sarsıntılara və böhranlara qarşı dayanıqlılığın təmin edilməsində mühüm rol oynayır. Ümumbəşəri sosial müdafiə sistemi müxtəlif insan qruplarının üzləşə biləcəyi vəziyyətlərə cavab vermək üçün tərtib edilməlidir*" [3].

Əlilliyi olan şəxslərin sosial müdafiəsi xeyriyyə yardımı, tibbi, sosial, peşə reabilitasiyası, təhsil almaq imkanı tədbiridir və onların digər vətəndaşlarla bərabər cəmiyyətdə

iştirak etmək imkanlarının yaradılmasına yönəlib. Buraya reabilitasiya, nağd ödənişlər şəklində dövlət tərəfindən sosial dəstək (sosial müavinətlər, ünvanlı sosial yardım, xüsusi yardım) daxildir.

Əlilliyi olan şəxslərin sosial müdafiəsi onların həyat fəaliyyətinə mane olan çətinliklərin aradan qaldırılmasını, cəmiyyətdə digərləri ilə bərabər imkanlar yaradılmasını ehtiva edən iqtisadi, sosial və hüquqi dövlət təminatları sistemidir.

Səmərəli sosial müdafiə sistemləri və proqramları əlillərin hüquqlarının reallaşmasında əhəmiyyətli rol oynayır. Səmərəli sosial müdafiə sistemi təkcə bərabərsizliyi və yoxsulluğu azaltmır, həmçinin ictimai səhiyyə, təhsil, məşğulluq və maliyyə vasitələrinə əlçatanlığı da təmin edir. BMT-nin Əlillərin Hüquqları Haqqında Konvensiyasının 28-ci maddəsində qeyd edilir "*Əlil insanlar, qidalanma, su, geyim və mənzil də daxil olmaqla, kafi həyat səviyyəsi və yoxsulluğun azaldılması və ictimai mənzil ilə təmin olunma proqramları daxil olmaqla səmərəli sosial müdafiə hüququna malikdir*" [14].

## 2. Azərbaycanda əlilliyi olan şəxslərin sosial müdafiəsi sahəsində dövlət siyasəti

Dövlət əlilliyə görə ayrı-seçkiliyə yol vermir, sağlamlıq imkanları məhdud uşaqlar da daxil olmaqla əlilliyi olan şəxslərin digərləri ilə yanaşı ictimai həyatın bütün sahələrində iştirak edə bilmələrinə, mövcud imkanlardan istifadə edə bilmələrinə təminat verir. Onlara fərdi qabiliyyət və maraqlarına uyğun olaraq həyat sürmələri üçün əlverişli şərait yaradılması, əlilliyə səbəb olan risklərin azaldılması və aradan qaldırılması, bu kateqoriyadan olan insanların reabilitasiyası və hərtərəfli inkişafı üçün tədbirlər görür.

Əlilliyi olan şəxslərin rifahının yaxşılaşdırılması və sosial müdafiəsinin təmin edilməsi ilə bağlı Azərbaycan Respublikası Prezidenti tərəfindən bir sıra fərman və sərəncamlar imzalanmış, qanun təsdiqlənmişdir. "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli qanunun 6-cı fəsli "Əlilliyi olan şəxslərin sosial müdafiəsi"nə həsr olunub. Qanuna əsasən, "*dövlət bu kateqoriyadan olan şəxslərin həyat şəraitinin yaxılaşdırılmasının təmin edilməsi üçün onların əlilliklə bağlı ehtiyaclarının ödənilməsinə köməklik göstərir, həmçinin sosial müdafiə və yoxsulluğun azaldılması üzrə dövlət proqramlarından istifadə etmək imkanlarını təmin edir*" [10].

Qeyd edək ki, əlilliyə görə ayrı-seçkiliyin yol verilməzliyi, bu kateqoriyadan olan şəxslərin digər şəxslərlə bərabər şəkildə cəmiyyətin həyatında iştirakının təmin edilməsi digər dövlət sənədlərində də əks olunur. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlərdən biri (Prioritet 2) dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyətin qurulmasıdır. Sözü gedən prioritet üzrə "2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda əlilliyi olan şəxslərin rifahının yaxşılaşdırılmasını nəzərdə tutan bir sıra məqsədlər müəyyən edilmişdir. Qarşıdakı illərdə ədalətli və əhatəli sosial müdafiə sisteminin qurulması, əlilliyi olan şəxslər üçün sosial yardımların əlçatanlığının artırılması, əmək bazarına inteqrasiyasının genişləndirilməsi tədbirlərinin görülməsi əsas məqsədlərdəndir. Görülən tədbirlərin nəticəsində əlilliyi olan şəxslərin məşğulluq səviyyəsinin 3% artımına nail olunması,

ölkədə reabilitasiya müəssisələri şəbəkəsinin genişləndirilməsi, bununla da reabilitasiya infrastrukturuna əlçatanlığının təmin edilməsi nəzərdə tutulub [6].

Həmçinin işgaldan azad edilmiş ərazilərdə də həssas əhali qruplarının sosial müdafiəsi diqqətdən yayınmayıb. Belə ki, yaşayış məntəqələrində dövlət xidmətlərinə çıxışın təmin edilməsi üçün müasir infrastrukturunun qurulması, 2026-cı ilədək Kəlbəcər rayonunda əlilliyi olan şəxslər üçün Reabilitasiya Mərkəzinin yaradılması, o cümlədən "*əlilliyi olan şəxslərin sahibkarlıq fəaliyyətinə cəlb olunmasının dəstəklənməsi və bununla da ərazilərdə sahibkarlıq fəaliyyətinin davamlı inkişaf etdirilərək və əhatəsinin genişləndirilməsi*" görüləcək işlər arasında yer almaqdadır [7].

## 3. Əlilliyi olan şəxslərlə bağlı sosial müdafiə xərcləri

Əlilliyi olan şəxslərin sosial müdafiəsinin mövcud vəziyyətinin qiymətləndirilməsində və onun gücləndirilməsi istiqamətlərinin müəyyən edilməsində onlara ayrılan sosial xərclərin təhlili zəruridir. Qeyd edək ki, Statistika Komitəsinin məlumatları arasında ölkəmiz üçün əlilliyi olan şəxslərin sosial müdafiəsi ilə bağlı dövlət büdcəsindən ayırmalar, əlilliklə bağlı xərclərin Ümumi Daxili Məhsulda payı kimi göstəricilər yoxdur. Təhlil və müqayisə üçün Asiya İnkişaf Bankının Asiyada əlilliyi olan şəxslərin sosial müdafiəsinin cari vəziyyətinə dair hazırladığı hesabat məlumatlarından istifadə edilmişdir (Cədvəl 1). Hesabatda əlillər cəmiyyətin ən yoxsul və ən həssas təbəqəsi kimi dəyərləndirilir. Qeyd edilir ki, on illər Asiyada əlillərin sayı artmaqdadır. Əlilliyi olan şəxslərin sosial müdafiəsinə çəkilən xərclərin artmasına baxmayaraq, regiondakı dövlətlər bu kateqoriyadan olan insanlara lazımı dəstək göstərə bilmirlər.

Regionda əlilliyi olan əhalinin payı 4,6%-ə qədərdir. Dövlətin sosial müdafiə xərclərinin tərkibində əlilliyi olan şəxslərə ayrılan sosial xərclərin payı 3,5% təşkil edir. Bu o, deməkdir ki, sosial müdafiə xərclərinin az hissəsi əlilliyi olan şəxslərə, böyük hissəsi isə əlilliyi olmayan şəxslərə sərf olunur. Bəzi ölkələr istisna olmaqla, regionun əksər ölkələrində əlillər üçün nəzərdə tutulan sosial xərclərin həcmi azdır. Sosial müdafiə xərclərinin daha çox əlillərə xərcləndiyi ölkələr Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Malaziya, Maldiv adaları, Monqolustan və Özbəkistandır. Azərbaycanda isə bu pay 4,19% təşkil edir. Mərkəzi Asiya və Qafqaz ölkələrində bu, daha çox "sovet sistemindən qalma miras" la bağlıdır. Belə ki, bu ölkələrdə insanları beşikdən məzara qədər dəstəkləyən sosial müdafiə sistemi mövcud olmuşdur ki, bu gündə bu ənənə davam edir.

Əksər Asiya ölkələrində əlilliklə bağlı xərclərin ÜDM-də payı artmışdır (Cədvəl 2). Regionda 2009-cu ildə əlilliklə bağlı  xərclərin ÜDM-də payı 0,17% təşkil etmişdirsə, 2018-ci ildə artaraq 0,22%-ə çatmışdır.  Ölkəmizdə də bu göstərici üzrə yüksəlmə baş vermişdir. 0,02%-dən 0,24%-ə yüksəlmişdir. Bu göstərici üzrə Ermənistan, Yaponiya, Qırğızıstan, Monqolustan və Malaziyada da artım baş vermişdir. Gürcüstan, Özbəkistanda isə azalma baş vermişdir. Əlilliyə və sosial müdafiəyə diqqətin artması həm mövcud proqramların genişləndirilməsi, həm də yeni proqramların qəbul edilməsi ilə bağlı olmuşdur.

**Cədvəl 1.** Bəzi Asiya ölkələrində və Azərbaycanda ümumi sosial xərclərin tərkibində əlillik üzrə məqsədli xərclərin payı, 2018

| | Müavinət üçün nəzərdə tutulan sosial müdafiə xərcləri (Adambaşına ÜDM-in %) | Əlilliyi olan şəxslər üçün sosial müdafiə xərcləri (Adambaşına ÜDM-in %) | Əlilliyə yönəldilmiş xərclərin ümumi sosial müdafiə xərclərində payı, % | Əlilliyin yayılması səviyyəsi,% |
|---|---|---|---|---|
| Azərbaycan | **5.90** | **0.25** | **4.19** | **6.37** |
| **Gürcüstan** | 4.70 | 0.25 | 5.27 | 3.00 |
| **Qazaxıstan** | 4.62 | 0.46 | 9.97 | 3.70 |
| **Yaponiya** | 11.70 | 0.51 | 4.32 | 7.50 |
| **Özbəkistan** | 6.30 | 1.04 | 16.48 | 2.20 |
| **Maldiv adaları** | 3.70 | 0.33 | 8.95 | 7.00 |
| **Monqolustan** | 4.78 | 0.43 | 8.93 | 4.00 |
| **Ermənistan** | 5.60 | 0.05 | 0.81 | 6.30 |
| **çəkisiz orta** | 4.15 | 0.18 | 3.47 | 4.55 |

**Mənbə:** [1]

**Cədvəl 2.** Bəzi Asiya ölkələrində və Azərbaycanda əlilliklə bağlı xərclərin ÜDM-də payı, %

| Ölkələr | 2009 | 2012 | 2018 |
|---|---|---|---|
| Azərbaycan | **0.02** | **0.11** | **0.24** |
| **Gürcüstan** | 0.64 | 0.58 | 0.43 |
| **Ermənistan** | 0.03 | 0.12 | 0.11 |
| **Özbəkistan** | 1.91 | 1.42 | 1.00 |
| **Pakistan** | 0.00 | 0.00 | 0.01 |
| **Yaponiya** | 0.25 | 0.45 | 0.5 |
| **Maldiv adaları** | 0.02 | 0.34 | 0.22 |
| **Malayziya** | 0.10 | 0.11 | 0.35 |
| **Monqolustan** | 0.50 | 0.38 | 0.76 |
| **çəkisiz orta** | 0,17 | 0,21 | 0,22 |

**Mənbə:** [1]

## 4. Əlilliyi olan şəxslərin sosial müdafiəsinin gücləndirilməsində sosial, tibbi və mənzil təminatının rolu

Respublikamızda əlilliyi olan şəxslərin sosial təminat hüququ "Əmək pensiyaları haqqında" və "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikasının Qanunlar ilə tənzimlənir. 2022-ci ildə ölkəmizdə 600 minədək əlilliyi olan şəxs vardır (Qrafik 1). Bu kateqoriyadan olan şəxslər əmək pensiyaları, sosial müavinətlər, Azərbaycan Respublikası Prezidentinin təqaüdləri və sosial yardımlar kimi aylıq ödənişlərdən ibarət sosial müdafiə ilə təmin edilirlər.




**Qrafik 1.** Azərbaycanda pensiya və ya müavinət alan əlilliyi olan şəxslərin sayı (ilin əvvəlinə, min nəfər)
**Mənbə:** [2]

Müqayisə edilən 2005-2022-ci illər ərzində əlillərin sayında 1,4 dəfə artım baş vermişdir. 2020-ci ildən sonra isə əlilliyi olan şəxslərin sayında azalma baş vermişdir. Buna səbəb, son illərdə əlilliyin təyin olunması sahəsində şəffaflığın təmin edilməsi, saxta əlillik təyinatlarının qarşısının alınması, sistemin təkmil əsaslarla qurulması üçün inzibati və sistem xarakterli tədbirlərin həyata keçirilməsi olmuşdur. Beləliklə, qeyd edilən dövrdə əlilliyi olanların sayının azalmasını keçirilən tədbirlərin nəticəsi kimi qiymətləndirmək olar.

Qeyd edək ki, DSMF-nun hesabatında əsassız pensiya və əlillik işlərinin ləğvi nəticəsində qənaət əldə edildiyi bildirilir. Hesabata əsasən, "*Qənaət hesabına 2021-ci il üçün dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi məqsədilə ayrılan transfertin kassa icrası proqnozlaşdırılan göstəricidən 324,1 milyon manat az icra edilmişdir. Həmin vəsaitlər digər sosial dəstək tədbirlərinin maliyyələşdirilməsinə yönəldilmişdir. Görülən tədbirlər nəticəsində 2022-ci ilin əvvəlinə DSMF-nin ehtiyat maliyyə mənbəyi 335 milyon manat artaraq 570 milyon manat təşkil etmişdir*"[4].

2022-ci ildə sağlamlıq imkanları məhdud 18 yaşadək uşaqların payı 10% (55,8 min nəfər) təşkil etmişdir. Müqayisə edilən 2005-2022-ci illər ərzində sağlamlıq imkanları məhdud 18 yaşadək uşaqların payının ən çox olduğu dövr 2019-cu ildə olmuşdur və 11,5%-ə yüksəlmişdir. Qeyd etmək lazımdır ki, sağlamlıq imkanları məhdud 18 yaşadək uşaqların sayında ilk dəfə əlil hesab edilən 18 və yuxarı yaşda olan şəxslərin say dinamikasındakı dəyişilmələr müxtəlif illərdə kəskin fərqlənir. Belə vəziyyət səhiyyə sistemində yeni texnologiyaların tətbiqi nəticəsində əvvəllər ölümlə nəticələnən bir çox xəstəliklərin müalicəsi imkanlarının genişlənməsi və bunun da öz növbəsində əlillərin sayının artmasına səbəb olması ilə izah oluna bilər.

Son illər əlillərin pul gəlirlərinin artması məqsədilə müxtəlif fərman və sərəncamlar verilib. Prezidentin fərman və sərəncamları ilə əlilliyə görə pensiyanın orta aylıq məbləği 2010-cu illə müqayisədə 2022-ci ildə 3 dəfə artıb (Qrafik 2). Başqa sözlə onun həcmi 98,5 manatdan

290,9 manata yüksəlib. 2023-cü ildə əlilliyə görə orta pensiya məbləği 323,8 manat təyin edilib ki, bu da ötən illə müqayisədə 32,9 manat çoxdur. 01.07.2023-cü ildən isə əlilliyə görə əmək pensiyalarının orta aylıq məbləği 366,3 manat təyin edilib.




**Qrafik 2.** Azərbaycanda əlilliyə görə təyin olunmuş aylıq pensiyaların orta məbləği, manatla
**Mənbə:** [2]

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin məlumatlarına əsasən, 2010-cu ildə ölkədə əlilliyə görə pensiyaçıların sayı 311,8 min nəfər olmuşdur. Cəmi pensiyaçıların tərkibində onların payı 23,8% təşkil etmişdir. 2021-ci ildə isə əlilliyə görə pensiya alanların sayı 62,0 min nəfər artaraq 373,8 min nəfərə çatmışdır. Cəmi pensiyaçıların tərkibində isə onların payı 30,4%-ə yüksəlmişdir. 2022-ci ildə əlilliyə görə pensiya alanların sayı 347,3 min nəfər, 2023-cü ildə isə 273,1 min nəfər təşkil etmişdir. Cəmi pensiyaçıların tərkibində isə onların payı azalmış və müvafiq olaraq 29% və 24,5% olmuşdur.

2022-ci ildə 347,3 min nəfər pensiyaçının 12,8%-i və ya 44,4 min nəfəri əmək fəaliyyəti ilə məşğul olub (Cədvəl 3). 2020-ci ildə isə 384 min nəfər pensiyaçının 11%-i və ya 43,1 min nəfəri işləmişdir. İşləməyən pensiyaçıların aldıqları pensiyaların orta məbləği işləyənlərlə müqayisədə cüzi fərqlənir və azdır.

**Cədvəl 3.** Azərbaycanda əlilliyə görə işləyən və işləməyən pensiyaçılara təyin olunmuş aylıq pensiyaların orta məbləği və onların sayı

| | Pensiyaların orta məbləği, manat | | | Pensiyaçıların sayı, min nəfər | | |
|---|---|---|---|---|---|---|
| | **işləyən** | **işləməyən** | **fərq** | **işləyən** | **işləməyən** | **fərq** |
| 2020 | 220,7 | 230,9 | 10,2 | 43,1 | 340,9 | 297,8 |
| 2021 | 258,0 | 261,3 | 3,3 | 46,1 | 327,7 | 281,6 |
| 2022 | 288,5 | 291,2 | 2,7 | 44,4 | 302,9 | 258,5 |

**Mənbə:** [2]

Əlilliyə görə sosial müavinət alanların sayı 2023-ci ildə 209,5 min nəfər təşkil etmişdir ki, bu da 2022-ci illə müqayisədə 59 min nəfər çoxdur (Cədvəl 4). Əlilliyə görə sosial müavinətin məbləğində artım baş versə də onun həcmi həm ehtiyac meyarından, həm də yaşayış minimumundan aşağı olmuşdur. Əlil uşaqlara verilən müavinətin orta məbləği isə 200 manat

təşkil etmişdir. Uşaqlar üçün yaşayış minimumunun məbləği 193 manat olmuşdur. Əlilliyi olan şəxslərə qulluq edənlərə verilən təqaüdün həcmi 100 manatdır.

Göründüyü kimi, əlillərin müavinətlərinin məbləği azdır. Bu göstərici nəinki inkişaf etmiş, bəzi hallarda inkişaf etməkdə olan ölkələrin müvafiq göstəricisindən aşağıdır. Qeyd edək ki, müavinətlərin məbləğinin azlığı bu kateqoriyadan olan insanların sosial müdafiəsində problemlər yaradır [11].

Əlilliyi olan şəxslərin digər insanlarla müqayisədə tibbi xidmətlərə daha çox ehtiyacları vardır. Bu şəxslərin tibbi təminatına əsasən, onlar dərman preparatları, tibbi xidmət, ölkə hüdudları daxilində sanatoriya-kurort müalicəsi təmin olunurlar. Əlilliyi olan şəxslər "Əlilliyi olan şəxslərə dövlət büdcəsi hesabına verilən reabilitasiya vasitələrinin növlərinin Siyahısı"na və "Əlilliyi olan şəxslərin reabilitasiya vasitələri ilə təmin edilməsi Şərtləri və Qaydası"na əsasən, protez-ortopedik məmulatlar və digər reabilitasiya vasitələri ilə təmin edilirlər. Həmçinin 23 dekabr 2021-ci il tarixində "Əlilliyi olan şəxslərin dərman preparatları, tibbi xidmət və ölkə hüdudları daxilində sanatoriya-kurort müalicəsi ilə təmin olunması Qaydası" təsdiq edilmişdir. Sənəd "*əlilliyi olan şəxslərin, o cümlədən 18 yaşınadək sağlamlıq imkanları məhdud uşaqların dərman preparatları, tibbi xidmət və ölkə hüdudları daxilində sanatoriya-kurort müalicəsi ilə təmin olunması qaydasını tənzimləyir*" [9].

**Cədvəl 4.** Əlilliyə görə əhaliyə dövlət tərəfindən verilən sosial müavinətlər, ehtiyac meyarı və yaşayış minimumu (Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin məlumatlarına əsasən, ilin əvvəlinə)
Eyni zamanda bir neçə növ sosial müavinət alan şəxslər üzrə aldıqları sosial müavinətlərin sayı nəzərə alınmaqla

| | 2015 | | 2020 | | 2022 | | 2023 | |
|---|---|---|---|---|---|---|---|---|
| | Sosial müavinət təyin olunmuş şəxslərin sayı, nəfər | Bir nəfərə düşən orta aylıq məbləğ, manat | Sosial müavinət təyin olunmuş şəxslərin sayı, nəfər | Bir nəfərə düşən orta aylıq məbləğ, manat | Sosial müavinət təyin olunmuş şəxslərin sayı, nəfər | Bir nəfərə düşən orta aylıq məbləğ, manat | Sosial müavinət təyin olunmuş şəxslərin sayı, nəfər | Bir nəfərə düşən orta aylıq məbləğ, manat |
| **Aylıq sosial müavinət alanların sayı, cəmi[1]** | 338231 | 50,60 | 401249 | 118,40 | 396891 | 119,07 | 418227 | 157,02 |
| **əlilliyə görə** | 129888 | 49,43 | 180521 | 125,17 | 150252 | 132,2 | 209467 | 169,94 |
| **Ehtiyac meyarı** | - | 105 | - | 160 | - | 200 | - | 246 |
| **Yaşayış minimumu** | - | 131 | - | 190 | - | 210 | - | 246 |

**Mənbə:** [2]

DSMF-nun illik hesabatlarından əlilliyi olan şəxslərin və sağlamlıq imkanları məhdud uşaqların sosial müdafiəsinin təmin edilməsi, onların müalicə və reabilitasiyası ilə bağlı görülən tədbirlərlə bağlı məlumatlar əldə etmək mümkündür. Tibbi təminatla təmin edilənlərin sayını

mövcud əlillərin sayı ilə müqayisə etdikdə məlum olur ki, bu xidmətlərdən kənarda qalanların sayı da az deyil.

Əlilliyi olan şəxslərin həyat şəraitinin yaxılaşdırılması məqsədilə onların mənzillə təmin olunmaları həyata keçirilir. Əlilliyi olan şəxsin yaşayış sahəsinə ehtiyacı olan hesab edilməsinin əsasları və yaşayış sahəsinə uçot üçün qeydə alınması qaydaları Azərbaycan Respublikasının Mənzil Məcəlləsi ilə müəyyən edilir.

2022-ci ildə ölkədə dövlət hesabına yaşayış sahəsi ilə təmin olunan ailələrin sayı 1794 olmuşdur (Cədvəl 5). Bunun 38,5%-i və ya 691 nəfəri Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi olan şəxslər olmuşdur. Təmin olunmuş 199 ailə isə əlilliyi olan şəxslər, o cümlədən sağlamlıq imkanları məhdud uşaqların ailələri olmuşdur.

**Cədvəl 5.** Dövlət hesabına yaşayış sahəsi ilə təmin olunan ailələrin sayı

| | 2020 | 2021 | 2022 |
|---|---|---|---|
| **Ölkə üzrə cəmi** | 5 610 | 3 258 | 1 794 |
| **Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi olan şəxslər** | 996 | 748 | 691 |
| **Əlilliyi olan şəxslər, o cümlədən sağlamlıq imkanları məhdud uşaqların ailələri** | 3 | 275 | 199 |

**Mənbə:** [2]

Tibbi göstəriş olduğu hallarda əlilliyi olan şəxslər avtomobillə təmin olunurlar. Dövlətin müstəqilliyi və müdafiəsi zamanı əlil olmuş şəxslər, 1990-cı ilin 20 Yanvar hadisələri zamanı, hərbi xidmət vəzifələrini yerinə yetirən zaman, Çernobıl AES-də hərbi xidmət vəzifələrini yerinə yetirərkən əlil olmuş şəxslərin avtomobillə təmin olunmaq hüququ vardır.

## 5. Əlilliyi olan şəxslərin sosial müdafiəsinin gücləndirilməsində sosial xidmətin rolu

Əlilliyi olan şəxslərə sosial xidmət göstərilməsi qaydası və şərtləri "Sosial xidmət haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir. Sosial xidmət *"çətin həyat şəraitində yaşayan şəxsin (ailənin) sosial problemlərinin aradan qaldırılması və ictimai həyatda digər insanlarla bərabər iştirak imkanlarının yaradılması istiqamətində həyata keçirilən kompleks tədbirlər"i* nəzərdə tutur [13].

Sosial xidmətin məqsədi vətəndaşların həyat səviyyəsini ağırlaşdıran, sosial-psixoloji vəziyyətini çətinləşdirən, cəmiyyətdən təcrid olunmasına gətirib çıxaran halların qarşısını almaqdan, çətin həyat şəraitinin əmələ gəldiyi hallarda ehtiyacı olan şəxslərə sosial xidmətin göstərilməsini təmin etməkdən ibarətdir. Qanuna əsasən, Sosial xidmət müəssisələrində məskunlaşan valideyn himayəsindən məhrum olmuş sağlamlıq imkanları məhdud uşaqlar

yetkinlik yaşına çatdıqda, özlərinə xidmət edə və müstəqil yaşaya bilərlərsə, növbədənkənar mənzil almaq hüququna malikdirlər.

Qeyd edək ki, sosial xidmətin inkişafı məqsədilə 2023-2026-cı illər üçün Dövlət proqramı qəbul edilmişdir. Proqramda qeyd edilir ki, baxmayaraq ki, son illərdə əhaliyə göstərilən sosial xidmətlərin həcmi və sosial xidmətlərdən yararlananların sayı artmışdır, bu xidmətlərə olan tələbat daha yüksək templə artmaqdadır. Bu məqsədlə sənədin hədəf göstəriciləri arasında *"hər kəs üçün bərabər iştirak imkanını təmin edən sosial xidmətlər sisteminin formalaşması, çətin həyat şəraitində olan şəxslərə göstərilən sosial xidmətin əhatəsinin genişlənməsi və əhalinin göstərilən xidmətlərdən məmnunluq səviyyəsinin artması, sosial ünvanlılığının və keyfiyyətli xidmətlərə əlçatanlığın təmin edilməsi"* [5] kimi məsələlər yer almaqdadır.

Statistik məlumatların təhlilinə əsasən, 2022-ci ildə ölkəmizdə ahıllar, əlilliyi olan şəxslər və baxımsız uşaqlar üçün sosial xidmət müəssisələrinin sayı 8, həmin müəssisələrdə yerlərin sayı isə 1241, yaşayanların sayı isə 1017 nəfər olmuşdur (Cədvəl 6). Ahıllar, əlilliyi olan şəxslər və baxımsız uşaqlar üçün sosial xidmət müəssisələrinin sayında müqayisə edilən dövr ərzində artıb-azalma, həmin müəssisələrdə mövcud yerlərin və faktiki yaşayanların sayında artım baş vermişdir. Sağlamlıq imkanları məhdud olan uşaqlar üçün sosial xidmət müəssisələrinin sayında dəyişiklik baş verməsə də həmin müəssisələrdə mövcud yerlərin və yaşayanların sayında azalma baş vermişdir.

**Cədvəl 6.** Ahıllar, əlilliyi olan şəxslər və baxımsız uşaqlar üçün sosial xidmət müəssisələri (ilin əvvəlinə)

| | 2005 | 2010 | 2015 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|---|---|
| **Ahıllar, əlilliyi olan şəxslər və baxımsız uşaqlar üçün sosial xidmət müəssisələrinin sayı** | 7 | 7 | 7 | 9 | 9 | 8 | 8 |
| **Onlarda:** | | | | | | | |
| **Yerlərin sayı** | 1012 | 1012 | 1162 | 1 237 | 1220 | 1240 | 1241 |
| **Yaşayanların sayı, nəfər** | 767 | 848 | 817 | 812 | 849 | 754 | 1017 |
| **Sağlamlıq imkanları məhdud olan uşaqlar üçün sosial xidmət müəssisələrinin sayı** | 2 | 2 | 2 | 3 | 3 | 2 | 2 |
| **Onlarda:** | | | | | | | |
| **Yerlərin sayı** | 605 | 602 | 370 | 390 | 390 | 370 | 370 |
| **Yaşayanların sayı, nəfər** | 381 | 279 | 314 | 344 | 342 | 326 | 289 |

**Mənbə:** [2]

## 6. Dayanıqlı və səmərəli sosial müdafiənin əsas xüsusiyyətləri

Hər bir ölkənin sosial müdafiə sisteminin inkişafı ilə bağlı özünün yolu vardır. Bu ölkənin tarixi kontekstindən, sosial-iqtisadi vəziyyətindən, resurslarından, ictimai məhsulun bölgüsü ilə bağlı təcrübəsindən və digər bu kimi amillərdən asılıdır. Dünya ölkələrinin hər birinin əlilliyi olan şəxslərin sosial müdafiəsinin təmin edilməsi ilə bağlı özünəməxsus yanaşmaları var və özünəməxsus proqramlar və tədbirlər icra edirlər. Bununla belə inkişaf etmiş

ölkələrin təcrübəsinə əsasən, səmərəli sosial müdafiə sistemlərinin bəzi ortaq cəhətləri də mövcuddur. Ortaq cəhətlərdən bəzilərini nəzərdən keçirək:

- Mərkəzi və yerli özünüidarəetmə orqanlarının rollarının və hər bir strukturun məsuliyyətinin aydın şəkildə müəyyən edildiyi güclü sosial müdafiə sistemi mövcuddur;
- Xüsusi ehtiyacların təmin edilməsinə imkan verən müxtəlif sosial xidmətlər, imtiyaz və güzəştlər mövcuddur. Əlilliyə görə güzəşt və imtiyazlar bu şəxslərin müstəqil yaşamaq hüququnun həyata keçirilməsinə imkan verir;
- Sosial xidmətlər ailənin və cəmiyyətin möhkəmlənməsinə xidmət edir.
- İnstitutsionallaşma əvəzinə dövlət əlilliyi olan şəxslərə alternativ olaraq yerində qayğı xidmətləri göstərir;
- Yerli özünüidarəetmə orqanlarına sosial müdafiə ilə bağlı qərarların qəbulunda, sosial proqramların hazırlanmasında və ehtiyacı olanlara operativ reaksiya verməkdə və s. daha çox müstəqillik verilir;
- Sosial müdafiə sistemində iştirak edən mütəxəssislər dövlətin ömürboyu təhsil sisteminə çıxış əldə etmək imkanına malik olur.
- Xidmətlərə dair tələblər və standartlar və onların göstərilməsinə nəzarət mexanizmi qəbul edilib;
- Sosial proqramların və xidmətlərin inkişafı vətəndaşların və vətəndaş cəmiyyətinin iştirakı.
- Dövlətlər fərdləri və ailələri sosial həssaslıqdan qoruyan güclü profilaktik proqramlar və xidmətlərin hazırlanması üçün daha çox səy göstərir;
- Sosial xidmətlərin autsorsinqi ilə bağlı dövlət və qeyri-hökumət təşkilatları arasında sıx əməkdaşlıq əlaqələri qurulub [15].

Qeyd edək ki, beynəlxalq qurumlar əlilliyi olan şəxslərin sosial müdafiəsinin yaxşılaşdırılması, onların rifahının yaxşıllaşdırılması ilə bağlı müxtəlif tövsiyələr irəli sürürlər.

## 7. Avropa Komissiyasının əlillərin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı tövsiyələri

Avropa Komissiyası 2022-ci ildə "Avropada əlilliyi olan insanların sosial müdafiəsi" ilə bağlı hesabat hazırlayıb. Hesabatda 35 ölkədə (27 Aİ Üzv Dövləti, Böyük Britaniya və 7 (potensial) namizəd ölkə) 18 yaş və ondan yuxarı yaşda əlillərin sosial müdafiəyə çıxış imkanları təhlil edilir. Sənəddə əlilliyi olan şəxslərin sosial müdafiəsinin yaxşılaşdırılması ilə bağlı səhiyyə və mənzil təminatı ilə bağlı xərclərin ödənilməsi üçün maliyyə dəstəyi, köməkçi texnologiya və şəxsi yardımın göstərilməsi kimi məsələlərə diqqət yetirilir.

Hesabat göstərir ki, təhlil edilən ölkələrin böyük əksəriyyətində əlilliyi olan şəxslərin ehtiyaclarını müxtəlif dərəcədə qarşılayan tədbirlər görülsə də, bununla belə mühüm boşluqlar və maneələr var. Əlilliyi olan insanların sosial müdafiəyə səmərəli çıxışını təmin etmək üçün hələ də işlər görülməlidir. Bu boşluqlar və maneələr müraciət prosedurlarının effektivliyi,

mövcud əlilliyin qiymətləndirilməsi xüsusiyyətləri, gəlirlərin qorunması səviyyəsi və köməkçi texnologiya və fərdi yardım xidmətlərindən istifadə üçün təminat modeli ilə bağlıdır.

Hesabat əlilliyi olan şəxslərin sosial müdafiə sistemlərinə çıxışını və effektivliyini artırmaq və son nəticədə bu sahədə onların hüquqlarını təşviq etmək məqsədi ilə müəyyən edilmiş boşluqları və maneələri aradan qaldırmaq üçün milli və/və ya Aİ səviyyəsində bir sıra tövsiyələr təqdim edir:

- Ölkələrdə həyata keçirilən sosial siyasətin BMT-nin konvensiyasına uyğun olmasını təmin etmək;
- Sosial müdafiə ilə təmin edilmədə bərabərsizliyin aradan qaldırılması və bu sahədə vahid siyasət yürütmək;
- Əlilliyin qiymətləndirilməsi meyarlarını, qaydalarını təkmilləşdirmək;
- Əlilliyi olan şəxslərin əmək bazarına inteqrasiyası üçün əlverişli şəraitin yaradılması;
- Köməkçi texnologiyalardan istifadə edilməsinə çıxışın gücləndirilməsi;
- Mütəmadi olaraq bu sahə ilə bağlı məlumatların toplanması və monitorinqin gücləndirilməsi, həmçinin qiymətləndirmə mexanizmlərinin təkmilləşdirilməsi [8].

## 8. BƏT-in əlillərin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı tövsiyələri

BƏT-in tövsiyəsinə əsasən, sosial müdafiə proqramları əlilliklə bağlı əlavə xərcləri əhatə etməli və əlilliyi olan şəxslərin əmək bazarına daxil olması və orada qalması üçün stimullar təmin etməlidir.

Əlilliyi olan şəxslərin sosial müdafiəsinin gücləndirilməsi istiqamətləri:

- Qanunvericilik və siyasət: Əlilliyi olan şəxslərin hüquqlarını və maraqlarını qoruyan qanunvericilik tədbirləri və sosial siyasət həyata keçirilməlidir. Bu onların digərləri ilə bərabər və ədalətli iştirakına beləliklə də həyat keyfiyyətlərini təmin etməyə xidmət edir;
- Maneəsiz mühit və infrastruktur: Əlilliyi olan şəxslərə uyğun infrastruktur təmin edilməlidir.
- İş imkanları və inklüziv işgüzarlıq: Sahibkarları əlilləri işə götürməyə təşviq edən qaydalar qəbul edilməlidir. Bu iş imkanlarının artırılması, əlillərə uyğun iş şəraitinin yaradılması, inklüziv iş yerlərinin təşkili deməkdir.
- Təhsil və təlim: Əlilliyi olan şəxslərə uyğun təhsil və təlim imkanları yaradılmalıdır. Bu təhsil müəssisələrində əlilliyi olan şəxslərə uyğun məzmun və təlim metodlarının tətbiqi, təhsil müəssisələrinin bu kateqoriyadan olan şəxslər üçün uyğunlaşdırılmasını, təlim proqramlarının hazırlanmasını və inklüziv təhsil modelinin tətbiqini nəzərdə tutur.
- Sağlamlıq və reabilitasiya xidmətləri: Əlilliyi olan şəxslərə sağlamlıq xidmətləri və reabilitasiya xidmətləri tətbiq edilməlidir. Bu tibbi müayinə, reabilitasiya xidmətləri, psixoloji dəstəyin təmin edilməsini nəzərdə tutur.
- Sosial yardımlarla bağlı mexanizmlər: Əlilliyi olan şəxslərə maddi dəstək və sosial yardımlar göstərilməli, onlar məşğulluq proqramına cəlb edilməlidir;

- Cəmiyyətə inteqrasiya: Əlilliyi olan şəxslərin cəmiyyətə inteqrasiyası təmin edilməlidir. Bu onların sosial əlaqələrinin gücləndirilməsinə və bunun üçün uyğun mühitin yaradılmasına xidmət edir.

## 9. BMT-nin Asiya və Sakit okean regionu üzrə İqtisadi və Sosial Komissiyasının tövsiyələri

Komissiya 2021-ci ildə "Əlilliyi əhatə edən sosial müdafiəni necə tərtib etmək olar" adlı sosial inkişaf siyasətinin təlimatlarını hazırlamışdır. Siyasət təlimatı sosial müdafiənin əlillər üçün nə üçün vacib olduğunu izah edir və əlilliyi əhatə edən sosial müdafiə üçün zəruri olan əsas anlayışları və təlimatları təqdim edir.

Təlimatda qeyd edilir ki, "*Asiya və Sakit Okean regionunda 690 milyondan çox insan, o cümlədən əlilliyi olan qadınlar, kişilər və uşaqlar yaşayır. Əlilliyi olan şəxslərin sosial müdafiəsi onların cəmiyyətə səmərəli daxil edilməsinə və fəal iştirakına nail olmaq üçün əsasdır. Asiya və Sakit Okean regionunda ağır əlilliyi olan şəxslərin yalnız dörddə birinin sosial müdafiəyə çıxışı var. Əksər ölkələrdə əsas sosial müdafiə sistemi əlilliyi olan insanlar üçün yetərsiz və əlçatmazdır*" [12].

Təlimatda sosial müdafiə proqramlarının əlilliyi olan şəxslər üçün əlçatan olmasını təmin etmək üçün xüsusi tədbirlərin görülməsi tövsiyə olunur: Bu tövsiyələrə İnformasiyanın görmə, eşitmə və koqnitiv qüsurları olan insanlar üçün əlçatan formatlarda olması; dövlət idarələrində müraciət və qeydiyyat prosedurlarının əlavə ödənişlər tələb etməməsi və qeydiyyatların fiziki olaraq əlçatan olması və s. aiddir.

**Nəticə və tövsiyələr.** Tədqiqat nəticəsində aşağıdakı nəticələr əldə edilmişdir:

- Beynəlxalq təşkilatların hesabatlarından da göründüyü kimi dünyada heç bir dövlət əlilliklə bağlı problemlərin tam həllinə nail ola bilməmişdir. Bununla belə inkişaf etmiş və yüksək gəlirə malik ölkələrdə əlillərin sosial müdafiəsi inkişaf emtəkdə olan və aşağı gəlirli ölkələrlə müqayisədə daha yaxşı təmin olunub.

- Əlillərin sosial müdafiəsinin gücləndirilməsi hüquqi bazaları, səhiyyə xidmətlərini, təhsil, məşğulluq və sosial inteqrasiya təşəbbüslərini əhatə edən hərtərəfli və çoxsahəli yanaşma tələb edir.

- Respublikamızda son illər əlilliyi olan şəxslərin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı işlər görülmüşdür. Bununla belə, kifayət qədər problemlər qalmaqdadır. Əlilliyi olan şəxslərin mənzil və tibbi təminatla əhatə dairəsi aşağıdır.

- Əlilliyi olan şəxslər arasında peşə və ali təhsili olanların sayı azdır. Təhsil səviyyəsinin və ixtisasının aşağı olması onların gəlir əldə etmələrinə və məşğulluğuna mənfi təsir göstərir.

- Respublikamızda əlilliyi olan şəxslər məşğulluqlarının təmin olunmaları, nəqliyyatla bağlı və müəssisə və obyektlərin bu insanlar üçün əlverişli olmaması kimi problemlərlə qarşılaşırlar. Bu problemlər əlillərin daha çox başqalarından asılılıqlarını artırır. Əksər müəssisələrdə əlillərin hərəkət etməsi üçün infrastruktur nəzərdə tutulmayıb, pantuslar yoxdur. Əlilliyi olan şəxslərin iş olsa belə, gedib işləyə bilmələri üçün şərait yoxdur.

- Əlilliyi olan şəxlər yoxsulluğa həssas qrupdur.

- Əlilliyi olan şəxslər üçün əmək qanunvericiliyində imtiyazlar nəzərdə tutulub. İşə götürənlərin əmək şəraitinin təmin edilməsi ilə bağlı, məzuniyyətlə bağlı (əlillərə 41 gün məzuniyyət verilir), qısaldılmış iş vaxtının müəyyən edilməsi və s. ilə bağlı. Bu baxımdan işəgötürənlər əlilliyi olan şəxsləri işə götürməkdə maraqlı olmurlar.

Respublikamızda bu kateqoriyadan olan insanların sosial müdafiəsinin yaxşılaşdırılması ilə bağlı aşağldakı tövsiyələri verə bilərik:

- Dövlətin sosial müdafiə xərclərinin tərkibində əlilliyi olan şəxslərə ayrılan xərclərin payı azdır. Bu kateqoriyadan olan şəxslərin sosial müdafiəsinin gücləndirilməsi üçün bu payın artırılması zəruridir.

- Dövlət tərəfindən bu əhali kateqoriyasına münasibətdə həyata keçirilən sosial yönümlü tədbirlər nəticəsində onların sosial ödənişlərində artım dinamikası müşahidə edilsə də onlar yalnız dövlət tərəfindən verilən pensiya və müavinətlər hesabına öz tələbatlarını ödəyə bilmirlər. Əlilliyə görə sosial müavinətlərin məbləğinin pensiya məbləğindən aşağı olması birincilərin daha aztəminatlı kateqoriya kimi qiymətləndirilməsinə əsas verir. Həmçinin əlilliyi olan şəxslərin böyük hissəsi müavinət alanlardır. Onların həcmi isə həm yaşayış minimumu, həm də ehtiyac meyarından aşağıdır. Əlilliyə görə verilən müavinətlərin məbləği onların real tələblərini əks etdirən hər hansı bir meyara uyğun tərtib olunması və daha yüksək olması məqsədəuyğundur.

- Əlilliyi olan şəxslərin digərləri ilə müqayisədə ümumi mal və xidmətlərlə yanaşı, əlillikləri ilə bağlı xüsusi mal və xidmətlərə də ehtiyacları vardır ki, bu da əlavə xərc tələb edir. Həmçinin sözü gedən xərclər əlilliyin növü və dərəcəsinə görə də əhəmiyyətli dərəcədə dəyişir. Bu xərclərin nəzərə alınmaması sosial müdafiə siyasətinin səmərəliliyini zəiflədir. Sosial müdafiə siyasətlərinin səmərəli və əhatəli olması üçün bu insanların çəkdiyi əlavə xərclərin nəzərə alınması zəruridir.

- Əlillərin hüquq və azadlıqları və cəmiyyətdə tam və səmərəli iştirak etmələri üçün əsas xidmətlərin (təhsil, səhiyyə, bacarıqların inkişafı, nəqliyyat və s.) əlillər üçün əlçatan olması və onlara münasib şəraitin qurulması zəruridir.

- Hazırda respublikamızda daha çox əlillik statusunun verilməsi prosesinə əhəmiyyət verilir. Əlilliyin qarşısının alınması istiqamətində addımların atılması məqsədəuyğun olardı. Dövlət müəssisələrində səhiyyə xidmətlərinin keyfiyyətinin artırılması, iş yerlərində işçilərin əmək təhlükəsizliyinin təmin edilməsi ilə bağlı tədbirlərin görülməsi məqsədəuyğundur.

- Respublikamızda sağlamlıq imkanları məhdud şəxslərə qulluq edənlərə verilən təqaüdün həcmi aşağıdır və heç bir yaşayış standartına uyğun deyil. Onun artırılması zəruridir.

## Ədəbiyyat


1. ABD Briefs. Disability and Social Protection in Asia. https://www.adb.org/sites/default/files/publication/760671/adb-brief-203-disability-social-protection-asia.pdf
2. ARDSK. https://stat.gov.az/
3. Atatürk Universitesi. Engelliliği ele alan modeller. Unite 2. file:///C:/Users/User/Downloads/Documents/334-3055371221867393172-Unite_02.pdf
4. Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 2021-ci il üzrə hesabatı. https://sosial.gov.az/uploads/files/2022/06/illik-hesabat-2021.pdf
5. Azərbaycan Respublikasında sosial xidmətin inkişafına dair 2023–2026-cı illər üçün Dövlət Proqramı. Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 avqust tarixli 4059 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir. https://e-qanun.az/framework/55044
6. Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası file:///C:/Users/User/Downloads/Documents/5478ed13955fb35f0715325d7f76a8ea_3699216.pdf
7. Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə böyük qayıdışa dair I dövlət proqramı. 16 noyabr 2022-ci il tarixində Sərəncamla təsdiq edilmişdir. https://e-qanun.az/framework/52757
8. European Social Policy Network (ESPN). Social protection for people with disabilities – An analysis of policies in 35 countries. https://ec.europa.eu/social/BlobServlet?docId=26494&langId=en)
9. Əlilliyi olan şəxslərin dərman preparatları, tibbi xidmət və ölkə hüdudları daxilində sanatoriya-kurort müalicəsi ilə təmin olunması qaydası. https://e-qanun.az/framework/48766%20
10. Əlilliyi olan şəxslərin hüquqları haqqında Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli qanunu. https://e-qanun.az/framework/39591
11. Əliyeva J.R. (2022), Azərbaycan respublikasında əlillərin sosial müdafiəsinin mövcud vəziyyətinin qiymətləndirilməsi. Journal of Baku Engineering University Economics and Administration, 2, 146-154.
12. How to Design Disability-Inclusive Social Protection. Economic and Social Commission for Asia and the Pacific. United Nations, 2021. https://www.unescap.org/sites/default/d8files/knowledge-products/Social_Protection_module_5_E.pdf
13. Sosial xidmət haqqında Azərbaycan Respublikasının Qanunu. https://e-qanun.az/framework/23195
14. UN. Convention on the Rights of Persons with Disabilities (CRPD) https://social.desa.un.org/issues/disability/crpd/convention-on-the-rights-of-persons-with-disabilities-crpd
15. Магули Шагашвили. Оказание социальных услуг лицам с инвалидностью 2022 Руководство. https://www.undp.org/sites/g/files/zskgke326/files/2023-02/SSD%20Guideline%20UNDP%20RUS.pdf